## *Prezident İlham ƏLİYEV:*

# Biz vətəndaşlarımızı Qarabağa və Şərqi Zəngəzura ən qısa müddətdə qaytaracağıq



***Prezident, Ali Baş Komandan İlham Əliyev iyulun 14-də qardaş Türkiyənin nüfuzlu telekanallarından olan "CNN Türk"ə geniş müsahibəsində son illər ərzində dəfələrlə Azərbaycan xalqının bu vəziyyətlə heç vaxt barışmayacağını, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını işğalçılardan azad edəcəyini bildirdiyini xatırladaraq vurğulayıb: "Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan qurtuluş savaşına başlayaraq, öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi".***

***Dövlətimizin başçısı daha sonra diqqətə çatdırıb ki, 30 il Vətən həsrəti ilə yaşamış insanlar tezliklə öz yurdlarına, öz torpaqlarına qayıtmaq istəyirlər. Ancaq onu da çox yaxşı bilirlər ki, Qarabağda və Şərqi Zəngəzurda bütün evlər, şəhərlər dağıdılıb. Yaşayış sahələrində bir salamat bina belə saxlanılmayıb. Bütün binalar işğal dövründə erməni vəhşiləri tərəfindən yerlə bir edilib.***

Erməni vandallarının xarabazara çevirdikləri əzəli-əbədi yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi indi dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir.

Burada bir məsələyə də xüsusi toxunmaq istərdik. İşğaldan azad edilən ərazilərdə yüz minlərlə mina basdırılıb. Müharibə başa çatandan bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək ya həlak olub, ya da ki, öz sağlamlığını itirib. Ona görə də hazırda minatəmizləmə işi, infrastruktur layihələrinin icrası sürətlə aparılır.

Ermənilərin bütün bu vandal, barbar əməlləri dövlətimizin gücü ilə aradan qaldırılacaq, dağıdılan maddi-mədəni irsimiz yenidən bərpa olunacaq. Prezident İlham Əliyevin işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlarda səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi yer tutur. Dövlətimizin başçısının vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa, quruculuq işlərini həyata keçirəcəyik. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdacaq, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proqramlarının uğurlu icrası daha da sürətlənəcək, Qarabağın yaraları sağaldılacaq, bu ərazilər cənnət məkana çevriləcək.

Prezident İlham Əliyev "CNN Türk" kanalına müsahibəsində bununla bağlı deyib: "Ancaq qayıdış üçün bizə zaman lazımdır. Çünki 30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir. Bizim burada əsas rəqibimiz zamandır. Çünki Qarabağın və Şərqi Zəngəzurun bərpası üçün kifayət qədər maliyyə vəsaiti toplanıb və səfərbər olunub. Amma bizim əsas rəqibimiz zamandır və hər kəs anlamalıdır ki, burada da zamana ehtiyac var. Lakin biz vətəndaşlarımızı ən qısa müddət ərzində qaytaracağıq. Birinci pilot layihə artıq gerçəkləşir, Zəngilan rayonunda 3 kəndi birləşdirən bir layihə bu ilin sonuna, ya da ki, gələn ilin əvvəlinə hazır olacaqdır. Bu yaxınlarda yenə də bir neçə kəndin planı mənə təqdim edildi, təsdiqləndi. Yaxın gələcəkdə o kəndlərin də layihələri icra ediləcək və tədricən biz insanları o bölgələrə qaytaracağıq".

Dövlətimizin başçısının müsahibədə qeyd etdiyi Zəngilan rayonunun Üçüncü Ağalı kəndində "Ağıllı kənd" layihəsinin icrası hazırda sürətlə aparılır. Layihə əsasən 5 komponent-yaşayış, istehsal, sosial xidmətlər, "Ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri üzrə reallaşdırılır. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Erməni işğalından azad olunmuş digər ərazilərdə də "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarının icrası nəzərdə tutulur. "Ağıllı kənd" texnologiyalarının tətbiqi həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına da şərait yaradacaq və Qarabağ regionunun həm də texnoloji innovasiya-startap mərkəzi kimi cəlbediciliyini artıracaq.

Yeri gəlmişkən, "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri bir çox ölkələrdə və şəhərlərdə icra olunur. Bunlara misal olaraq Sinqapur, London, Nyu-York və Amsterdam kimi şəhərləri misal gətirmək olar. Bu şəhərlər, həm də turizm mərkəzlərindən biridir. Bu da o deməkdir ki, "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri gələcəkdə Qarabağın gözəl guşələrinin dünyada daha da tanıdılmasına kömək edəcək.

"Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri, həmçinin texnologiyalara əsaslandığı üçün texnoloji investorların da bölgəyə cəlb edilməsinə, startapların yaradılmasına və ən əsası isə burada yaradılacaq aqroparkların və texnoparkların inteqrasiya olunmasına gətirib çıxaracaq. Bu isə, öz növbəsində, Qarabağ iqtisadiyyatını ölkə iqtisadiyyatına inteqrasiya edəcək və regionda baş verə biləcək bütün dəyişikliklərə müsbət töhfəsini verəcək.

Burada bir məsələni də xatırlatmaq istərdik. Qarabağda uki yüz min hektar kənd təsərrüfatı sahəsi və bundan da çox örüş yerləri, həmçinin keçmiş cəbhə xətti boyunca istifadəsiz qalan on minlərlə hektar ərazi aqrar biznesin resurs əsasını təşkil edir. Hesablamalar göstərir ki, orta müddətli perspektivdə Qarabağ bölgəsi ölkənin kənd təsərrüfatına 10,4 faiz töhfə verəcək. Bundan başqa, 167 faydalı qazıntı ehtiyatı hesabına Qarabağda dağ-mədən sənayesinin inkişafı planlaşdırılır. Xüsusən də, "Söyüdlü" yatağının hesabına Kəlbəcərin bölgədə dağ-mədən sənayesinin mərkəzinə çevrilməsi imkanları genişdir. Qarabağ bölgəsinin ölkəmizdə mədənçıxarma sənayesinə təsiri 5,3 faiz, emal sənayesinə isə 4,3 faiz ola bilər.

Qarabağda təhlükəsizliyin təmin olunması, o cümlədən, minalardan təmizlənmə və infrastrukturun yaradılması istiqamətində əsas yük dövlət büdcəsinin üzərinə düşsə də, beynəlxalq inkişaf partnyorları, özəl sektor və diaspor sərmayələri iqtisadiyyatın canlandırılmasında həlledici ola bilər. Həmçinin Qarabağın 2030-cu ilə qədər Azərbaycanın qeyri-neft sektorunun 5-10 faizi həddində iqtisadiyyata sahiblənəcəyi gözlənilir.

İşğaldan azad olunan ərazilərdə 3 beynəlxalq hava limanı fəaliyyət göstərəcək. Füzuli aeroportu bu ilin payızında istifadəyə veriləcək. Zəngilan və Laçında hava limanlarının təməli qoyulub.

Qarabağın işğaldan azad edilməsindən sonra sürətlə aparılan infrastruktur quruculuğu layihələrdən olan bu hava limanları nəinki iqtisadi, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu artıracaq. İlk növbədə, bərpa dövründə hava limanlarının rolu çox böyükdür. Başlıca olan səbəblərdən biri nəqliyyat-logistika baxımından bu bölgəyə çatdırılacaq malların, gediş-gəlişin bərpası, aparılan infrastruktur, quruculuq layihələrinin və bərpa prosesin sürətləndirməsinə müsbət təsir göstərəcək. Aeroportların fəaliyyətə başlaması, həmçinin Zəngəzur dəhlizinin də əhəmiyyətini artıracaq. Bu dəhlizin bərpası nəinki Azərbaycanın, həmçinin regionun, eləcə də Avrasiyanın bir neçə ölkəsinin inkişafını sürətləndirəcək.

Bu gün Qarabağın bərpasında prioritet istiqamətlərdən biri də yol infrastrukturunun bərpasıdır. Yeri gəlmişkən, hazırda Toğana–Kəlbəcər–İstisu, Xudafərin–Qubadlı–Laçın, Kəlbəcər–Laçın, Füzuli–Hadrut, Bərdə–Ağdam, Şükürbəyli–Cəbrayıl–Hadrut, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu, Talış-Tapqaraqoyunlu-Qaşaltı sanatoriyası və Füzulidən Şuşaya – Zəfər yolunun tikintisi sürətlə aparılır.

Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd hissəsinin layihəsi hazırlanır və paralel olaraq tikintisi reallaşdırılır. Avtomobil yolunun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, sözügedən yolun uzunluğu 123, 8 kilometr olacaq.

Onu da xatırladaq ki, Qarabağda yol tikintisinə cəlb edilən işçi qüvvəsinin sırasında həm yerli, həm də Türkiyə mütəxəssisləri var. Azad olunan ərazilərdə hazırda Türkiyə şirkətləri 372 kilometr yol və 70 kilometr tunel tikintisi işləri aparırlar. Qeyd olunan ərazilərdə yerli şirkətlər isə 282 kilometr uzunluğunda yol çəkirlər.

Prezident İlham Əliyev tərəfindən Füzuli rayonunda Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması da nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Ümumi uzunluğu 100 kilometr olan bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad edilmiş torpaqlara rahat gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Ən önəmli cəhət isə odur ki, adı çəkilən infrastruktur Türkiyəyə qədər uzanmaqla Bakı–Tbilisi–Ceyhandan sonra Azərbaycanı qardaş ölkə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi olacaq. Həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək.

Bununla da Azərbaycan təhlükəsiz tranzit ölkə kimi növbəti mərhələyə daxil olur. Eyni zamanda, bu infrastruktur bütün türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasını şərtləndirir. Beləliklə, sözügedən layihənin reallaşması ilə Azərbaycanın regionda strateji əhəmiyyəti artır, o cümlədən iqtisadi potensialı daha da güclənir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***